AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA



*Gün gələcək
Azərbaycan dünyaya günəş kimi doğacaq.*

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

20 FEVRAL 2022-ci il BAZAR | № 39 (7221) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ

# ETİMAD, İNAM VƏ VƏTƏNƏ, XALQA XİDMƏT AMALININ VƏHDƏTİ

***Mehriban xanım Əliyeva çoxşaxəli və yorulmaz fəaliyyəti, təşəbbüskarlığı ilə təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da böyük nüfuz qazanmışdır***



**Beynəlxalq təşkilatlarda və gender siyasətinin inkişaf etdiyi ölkələrdə gender bərabərliyinin təmin edilməsi siyasi kursun ayrılmaz hissəsidir. Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı kimi təşkilatların fəaliyyətində gender bərabərliyi əsas fəaliyyət mexanizminin öhdəliyi kimi qəbul edilib. Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı İnkişaf Məqsədləri-2030" proqramında gender bərabərliyi əsas məqsədlərdən biri kimi göstərilir. Qeyd edilir ki, qadınlara və kişilərə cəmiyyətdə bərabər imkanlar yaratdıqda daha sağlam ailələr, güclü iqtisadiyyat, firavan həyat ortaya çıxır. Bərabərlik hansı sahələrdə təmin edilirsə, həmin sahələrdə xüsusi inkişaf qeydə alınır. Gender bərabərliyi olmadan cəmiyyətin inkişafı qeyri-mümkündür.**

**Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan gender bərabərliyi ilə bağlı bir çox konvensiyaları ratifikasiya edib. Bu gün ölkədə gender bərabərliyinin təmin edilməsi üçün böyük işlər görülür, qadınlarımız həyatın bütün sahələrində təmsil olunurlar.**

2017-ci il fevral ayının 21-də Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması ilk növbədə ölkəmizdə gender bərabərliyinin təmini istiqamətində ən uğurlu seçim oldu...

Azərbaycanda həyatın bütün sahələrində islahatlar həyata keçirilir, eyni zamanda dövlət idarəçilik sistemində də yeni təsisatlar yaradılır. 2016-cı il sentyabrın 26-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Konstitusiya islahatları ilə bağlı keçirilən referendumun nəticələrinə görə ölkədə Birinci vitse-prezident institutunun yaradılması da islahatlar kursunun təzahürüdür. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixli sərəncamı ilə Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması müasir tarixin mühüm hadisəsidir. Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev deyib: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır".

Yeni təyin olunan Mehriban Əliyeva isə Birinci vitse-prezident kimi fəaliyyət kredosunu açıqlayarkən Təhlükəsizlik Şurasının iclasındakı çıxışında belə qeyd etmişdir: "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz kiçik də olsa öz töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır... Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam".

(davamı 2-ci səhifədə)

# ETİMAD, İNAM VƏ VƏTƏNƏ, XALQA XİDMƏT AMALININ VƏHDƏTİ



*Mehriban xanım Əliyeva çoxşaxəli və yorulmaz fəaliyyəti, təşəbbüskarlığı ilə təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da böyük nüfuz qazanmışdır*

**(əvvəli 1-ci səhifədə)**

Mehriban Əliyevanın çıxışındakı bəzi məqamlara diqqət edərkən görürük ki, həmişə olduğu kimi, yenə də o, təvazökarlıq nümayiş etdirir. Axı, onun ictimai işlərə cəlb olunduğu ilk gündən həyata keçirdiyi layihələr, xeyriyyəçilik fəaliyyəti hamıya yaxşı məlumdur. Cəmiyyətin həssas təbəqələrinin problemlərini həll etməyə, ana nəvazişinə ehtiyac duyan uşaqları sevindirməyə, zəngin mədəniyyətimizi təbliğ etməyə, müxtəlif istiqamətlərdə yeni layihələr reallaşdırmağa böyük səy göstərən Mehriban xanım öz xeyirxah əməlləri ilə insanlara mərhəmət hissi aşılayır, onları biganəlik və laqeydlik kimi hisslərdən uzaq olmağa çağırır. O, cəmiyyətə təkcə çağırışlar etmir, əməli işi ilə nümunə olur.

Öz fəaliyyəti sferasında bu əqidəyə həmişə sadiq qalan Mehriban xanım Əliyeva Birinci vitse-prezident postunda da eyni məsuliyyətlə çalışır. Vəzifəyə təyin olunduğu gündən ötən 5 il müddətində bu sahədə də müsbət nəticələr əldə olunmuş, Birinci vitse-prezidentlik institutu idarəetmənin səmərəliliyini, çevikliyini artırmışdır.

Birinci vitse-prezident kimi fəaliyyəti dövründə Mehriban xanım Əliyeva ilk növbədə təşəbbüskarlığı ilə fərqlənib. Onun təşəbbüsü ilə ölkə əhalisinin bərabər, əlçatan və keyfiyyətli təhsillə təmin olunması istiqamətində reallaşan layihələr təhsildə demokratik prinsipin davamlılığını təmin edib. Ölkə əhalisinin sağlamlığının qorunması məsələsini daim diqqətdə saxlayan Azərbaycanın Birinci vitse-prezidenti sosial baxımdan həssas əhali qruplarının problemlərinin həlli istiqamətində də uğurla fəaliyyət göstərir. Azərbaycan mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələrinin dünyada tanıdılması, idman hərəkatının davamlılığının təmin edilməsi, ekoloji problemlərin həllinə dəstək göstərən Mehriban xanım Əliyeva Vətən müharibəsindən sonra işğaldan azad olunan torpaqların bərpasında da humanitar missiyasını davam etdirir.

Mehriban xanım Əliyeva Birinci vitse-prezident vəzifəsinə təyin olunanadək artıq cəmiyyətdə kifayət qədər nüfuz sahibi idi. Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, 2005-ci ildən 2017-ci ilə qədər Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri kimi fəaliyyəti Mehriban xanım Əliyevaya xalq arasında böyük hörmət qazandırmışdı. Effektiv təşkilatçılıq, peşəkar qərarların qəbul olunması, çeviklik onun bu uğurlu fəaliyyətini şərtləndirən əsas amillərdir. Ötən müddət ərzində keçirilən tədbirlərin siyahısına nəzər salsaq, onun genişmiqyaslı fəaliyyətinin mənzərəsi daha aydın görünür. Azərbaycan və dünya ictimaiyyəti 2017-ci ildə Bakının ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları zamanı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq qabiliyyətinin bir daha şahidi oldu. 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi tarixi hadisə olmaqla, həm də Birinci vitse-prezidentin təşəbbüskarlığının, prinsipiallığının nəticəsi kimi də əhəmiyyətlidir. Mehriban xanımın təşkilatçılığı ilə həyata keçirilən bir çox beynəlxalq əhəmiyyətli tədbirlərə Azərbaycanın ev sahibliyi etməsini də ictimaiyyət Birinci vitse-prezidentin yüksək təşkilatçılıq bacarığının, məqsədyönlülüyünün nəticəsi kimi qəbul edir, dəyərləndirir.

Mehriban xanım Əliyevanın Azərbaycanın bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq qurması, müxtəlif dost ölkələrlə əlaqələr yaratması istiqamətindəki fəaliyyəti də xüsusi qeyd edilməlidir. Məlumdur ki, onun prezidenti olduğu Heydər Əliyev Fondu uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl Azərbaycanın dünyada təqdimatı və təbliğidir. Məhz onun qlobal təşəbbüsləri sayəsində mədəniyyətlərarası dialoq Azərbaycanın beynəlxalq brendi olub, ölkələrarası dostluq münasibətlərinin qurulması istiqamətindəki fəaliyyəti Azərbaycana dost ölkələrin sayını artırıb. Fransa, İtaliya, Rusiya, Türkiyə, Ukrayna və başqa ölkələrin birinci xanımları və ya dövlət idarəetməsində yüksək vəzifə tutan xanımlarla keçirdiyi çoxsaylı görüşlər, əməkdaşlıq etdiyi müxtəlif platformalar da bu missiyanın yerinə yetirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Bu gün ümummilli lider Heydər Əliyevin irsinin yaşadılması istiqamətində də onun xüsusi xidmətləri var. Mehriban xanım Əliyeva ulu öndərin siyasi irsinə həmişə sadiq olduğunu əməli fəaliyyətilə sübut edir. 2021-ci il martın 5-də Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini təyin edilməsi, hər şeydən əvvəl ona göstərilən yüksək etimad idi. Digər tərəfdən, ulu öndər Heydər Əliyevin siyasi irsinə sadiqliyin, Azərbaycanın dövlət siyasətində qadına göstərilən etimadın, diqqətin təcəssümü idi.

Azərbaycanın dövlət siyasətində qadınlara hörmət, onların cəmiyyətdə fəal mövqe tutması, yüksək vəzifələrə təyin edilməsi və s. məsələlər daim diqqət mərkəzində olub. Vaxtilə ulu öndərin Azərbaycan qadınlarının inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər onların aparıcı qüvvəyə çevrilməsinə zəmin yaratmışdır. Həmin ənənə bu gün də davam etdirilir. Beynəlxalq ictimaiyyət Mehriban xanım Əliyevanı dünyanın ən nüfuzlu qadın siyasətçilərindən biri kimi səciyyələndirir. Təsadüfi deyildir ki, o, ötən illər ərzində çoxsaylı nüfuzlu beynəlxaq mükafatlarla təltif olunub. Mehriban xanım Əliyeva "Heydər Əliyev" ordeninə və Heydər Əliyev Mükafatına layiq görülüb. Fransanın "Şərəf Legionu", Rusiyanın "Dostluq" və "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə", İtaliyanın "Xidmətlərinə görə" Böyük Xaç Kavaleri, Vatikanın IX Piy Ordeninin Böyük Xaçı, Polşanın "Xidmətlərə görə" Böyük Komandor Xaçı, Pakistanın "Hilal-e Pakistan", Serbiyanın "Sreten", Macarıstanın "Xidmətlərə görə" Komandor Xaçı, Rus Provaslav Kilsəsinin II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordenləri, UNESCO-nun "Qızıl Motsart" medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Qızıl medalı, Krans Montana Forumunun Qızıl medalı və "Prix de la Fondation" mükafatı, Avropa Olimpiya Komitəsinin Ali Ordeni, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin Ali Ordeni, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qızıl medalı, Küveyt Dövlətinin Fəxri diplomu, Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatı, "Qızıl ürək" beynəlxalq mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı və s. mükafatlar onun əməyinə, xidmətlərinə verilən dəyərdir.

Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin təbliği istiqamətindəki fəaliyyəti də diqqətəlayiqdir. Azərbaycan muğam sənətinin beynəlxalq arenaya çıxarılması da onun təşəbbüsünün nəticəsidir. Təsadüfi deyildir ki, Mehriban xanım Əliyeva 2004-cü ilin avqustunda UNESCO-nun, 2006-cı ilin noyabrında isə ICESCO-nun xoşməramlı səfiri adına layiq görülüb. Onun bu beynəlxalq təşkilatlarla uğurlu fəaliyyətinin nəticəsidir ki, Azərbaycanın mədəniyyət nümunələri UNESCO-nun Qeyri-Maddi-Mədəni İrs Siyahısına daxil edilib.

Milli təhsilimizin təəssübkeşi olan Mehriban xanım Əliyevanın vaxtilə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı, "Təhsilə dəstək" və s. proqramların icrası nəticəsində təhsildə, habelə yeni savadlı və vətənpərvər nəslin formalaşdırılması prosesində əsaslı nailiyyətlər əldə olunub. Təkcə 2020-2021-ci tədris ilində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə, o cümlədən Bakı, Gəncə və Mingəçevir şəhərlərində, eləcə də müxtəlif rayonlarda 100-ə qədər, ümumilikdə isə ötən dövr ərzində 3000-dən artıq təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq istifadəyə verilib.

Sağlamlığın qorunması istiqamətində "Talassemiyasız həyat naminə" layihəsinə başlanılıb. Ölkəmizdə həssas əhali qrupları ilə işləmək, onların problemlərinin həllinə dəstək olmaq Mehriban xanım Əliyevanın fəaliyyət sahəsinin ana xəttini təşkil edir. Qarabağ müharibəsi şəhidlərinin övladları, valideynləri, doğmalarına Mehriban xanım Əliyeva xüsusi diqqət və qayğı ilə yanaşır. Heydər Əliyev Fondu tərəfindən pandemiya dövründə aztəminatlı ailələrin ərzaq və tibbi ləvazimatlarla təminatı həyata keçirilmişdir.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir sıra kampaniyalar həyata keçirilib və müsbət nəticələr verib. Onun təşəbbüsü ilə 2007-ci il Novruz bayramı ərəfəsində keçirilən "Hərəmiz bir ağac əkək" kampaniyası hər il davam etdirilir. Ətraf mühitin sağlamlaşdırılmasına, ekoloji problemlərin həllinə töhfə olan bu layihə çərçivəsində respublikanın bütün guşələrində yüz minlərlə ağac əkilib, yeni parklar, bağlar salınıb.

Bu gün Azərbaycan dünyanın ən nüfuzlu dövlətlərindən birinə çevrilib. İkinci Qarabağ müharibəsindəki qələbə ölkəmizin nüfuzunu daha da artırıb. İndi işğaldan azad olunmuş ərazilərdə aparılan abadlıq, quruculuq işlərində Mehriban xanım Əliyevanın da xidmətləri aydın görünür. Həmin ərazilərdə mədəni, dini abidələrin bərpası, beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi Mehriban xanım Əliyevanın təşəbbüsü, təşkilatçılığı ilə reallaşdırılır.

Milli dəyərlərə sadiq olan Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyəti ilə azərbaycançılıq ideologiyasına xidmət edir, Azərbaycan dövlətçiliyinin qorunması və qüdrətlənməsi naminə uğurla fəaliyyət göstərir. Ona bu yorulmaz fəaliyyətində uğurlar arzulayırıq.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**